# Ağcabədidə əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

**Dövlətimiz xalqımızın sosial rifah halının yaxşılaşdırılmasına daim qayğı göstərir. Bu yüksək qayğının nəticəsidir ki, müstəqilliyimizin ilk illəri ilə müqayisədə indi əhalinin gün-güzəranı xeyli yaxşılaşmış, sosial məşğulluq artmışdır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin rüblük, illik hesabatlarında, bölgələrdə əhali ilə görüşlərdə, söhbətlərdə aztəminatlı ailələrə dövlət qayğısından danışır, neft kapitalının insan kapitalına çevrilməsini xüsusi vurğulayır. Vaxtaşırı olaraq müavinətlərin, ünvanlı sosial yardımın miqdarının artırılması, işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınması dövlətimizin xalqımızın aztəminatlı təbəqəsinə diqqət və qayğısından xəbər verir.

Qeyd edilməlidir ki, ölkəmizin iqtisadi qüdrəti yüksəldikcə, əhalinin sosial müdafiəsi də gücləndirilir.

**Ağcabədi Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Əbülfət Qasımovla** söhbətimizdə bildirdi ki, sosial müdafiə sahəsində həyata keçirilən islahatlar əhalinin rifah halının yüksəlməsinə xidmət edir. Bu islahatların ardıcıl tətbiqi əhalinin sosial müdafiəsi mərkəzləri qarşısında mühüm vəzifələr qoymuşdur. Həmişə olduğu kimi, Ağcabədi rayon ƏSM Mərkəzi 2014-cü il ərzində də bu vəzifələri müvəffəqiyyətlə yerinə yetirmiş və rayon əhalisinin sosial müdafiəyə ehtiyacı olan hissəsinə nümunəvi xidmət göstərmişdir.

Belə ki, 2014-cü ilin əvvəlindən fəaliyyətdə olan işlər üzrə 9389 ailənin 16675 nəfər üzvünü əhatə edən kontingentin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə müxtəlif növ sosial müavinət, təqaüd və ünvanlı sosial yardım formasında 7444490 manat məbləğində vəsait xərclənmişdir. O cümlədən mərkəz üzrə fəaliyyətdə olan 7037 sosial müavinət işi üzrə 3075700 manat məbləğində vəsait təyinatı üzrə xərclənilmişdir.

2014-cü il ərzində 41 nəfər Çernobıl əlilinə 7995 manat məbləğində müalicə pulu verilmişdir.

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 29 oktyabr 2013-cü il tarixli Qanunu ilə beşdən çox uşağı olan qadınlara sosial müavinət təsis edilmiş və 1 yanvar 2014-cü il tarixindən qüvvəyə minmişdir. Qanuna dəyişikliyin tətbiqi ilə rayon üzrə 2014-cü ilin əvvəlindən 32 anaya, 93 uşağa görə 29040 manat məbləğində sosial müavinət ödənilmişdir.

"Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası istiqamətində şəhid ailəsi üzvü statusu almış 228 nəfərə 172 iş üzrə 351900 manat məbləğində Prezident təqaüdü ödənilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin müharibə əlilərinə olan diqqət və qayğısının təzahürü olaraq 9 sentyabr 2008-ci il tarixli fərmanla müharibə əlillərinə Prezident təqaüdü təsis edilmişdir ki, rayonumuzda da 223 nəfər müharibə əlilinə bu fərmanla Prezident təqaüdü təyin edilmiş və 2014-cü il ərzində 261742 manat vəsait ödənilmişdir.

Bununla yanaşı 2014-cü il ərzində rayon üzrə 1 nəfər Milli Qəhrəman ailəsinə 12 min manat, fəxri ad almış 8 nəfər şəxsə 4800 manat, 4 nəfər BVM iştirakçısına 3390 manat məbləğində Prezident təqaüdü təyin edilib ödənilmişdir.

Əhalinin rifah halını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2013-cü il tarixli 72 nömrəli fərmanı ilə əlilliyi, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar baş vermiş bir qrup sosial müavinət alan əlillərə 1 aprel 2014-cü il tarixdən Prezident təqaüdü təsis edilmiş və təqaüd 60 manat məbləğində müəyyən edilmişdir. Mərkəzdə fərmanın icrası təmin edilmiş və 147 nəfər I qrup əlilə Prezident təqaüdü təyin edilərək 2014-cü ilin üç rübü ərzində 55840 manat məbləğində vəsait ödənilmişdir.

Aztəminatlı ailələrin sosial müdafiəsi sahəsində mühüm rol oynayan ünvanlı dövlət sosial yardımı sisteminin tətbiqi və bu sistemdə aparılan yeniliklər müsbət nəticəsini verməkdədir.

Belə ki, 2014-cü ilin əvvəlindən ünvanlı sosial yardım almaq üçün vətəndaşların müraciətləri əsasında 1797 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir.

2015-ci ilin 1 yanvar vəziyyətinə ünvanlı sosial yardım almaq hüququna malik 1797 ailə 8108 nəfər ailə üzvünü əhatə edir. Ünvanlı sosial yardım təyin edilmiş ailələrin tərkibində 687 ailə və ya 38,23 faiz üç və daha çox uşağı olan ailələr təşkil etmişdir. Eyni zamanda ünvanlı sosial yardım təyin edilmiş ailələrdən 271 ailə əlil ailələri, 109 ailə isə məcburi köçkün ailələridir.

Əlillərin müalicəsi və istirahətinin təşkili istiqamətində 2014-cü ilin əvvəlindən 15 nəfər "Sehrli Naftalan" sanatoriyasına, 3 nəfər isə Mərdəkan Müalicə Pansionatına, 1 nəfər "Günəşli" sanatoriyasına, 1 nəfər "Abşeron" sanatoriyasına, 1 nəfər "Qaranquş" sanatoriyasına göndərilmişdir.

Əlilliyin reabilitasiyası məqsədi ilə 2014-cü ilin əvvəlindən 9 nəfər Qarabağ müharibəsi əlilinə nazirliyin xətti ilə pulsuz "Nazlifan" markalı avtonəqliyyat vasitəsi verilmişdir.

Ağcabədi rayon ƏSMM-in direktoru Əbülfət Qasımov əmin olduğunu bildirdi ki, dövlətimizin qayğısı sayəsində xalqımız hər gələn yeni ili daha firavan qarşılayacaqdır.

**Vəli İLYASOV,**
**"Respublika".**